**UOT 336.76**

***Murad Teymur oğlu MƏMMƏDZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***

# BÜDCƏ XƏRCLƏRİNİN MAHİYYƏTİ VƏ SƏMƏRƏLİLİYİNİN TƏMİN EDİLMƏSİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – büdcə xərclərinin mahiyyətinin müəyyən edilməsinə və bu xərclərin səmərəliliyinin artırılmasına əsas nəzəri-metodoloji yanaşmaların tədqiqi.

**Tədqiqatın metodologiyası** – sistemli yanaşma, müqayisəli təhlil.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – büdcə xərcləri ilə bağlı tədqiqatlarda elmi mənbə kimi istifadə imkanı.

**Tədqiqatın nəticələri** – büdcə xərcərinin səmərəliləşdirilməsinə dair təkliflər verilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - Azərbaycan Respublikasında büdcə xərclərinin mahiyyəti və onların səmərəliləşdirilməsi ilə bağlı müasir istiqamətlərin müəyyən edilməsi və elmi cəhətdən əsaslandırılması.

***Açar sözlər: büdcə xərcləri, dövlət xərcləri, ictimai xərclər, səmərəlilik, büdcədənkənar transfer, xərclər sistemi.***

## *Giriş*

Dünyanın bir çox ölkəsi dövlət səviyyəsində daim ehtiyat çatışmazlığı problemi və əhalinin ehtiyaclarını maksimal şəkildə tam ödəmək üçün onların səmərəli paylanması zərurəti ilə üzləşir. Təcrübədə bu problemlərin həlli, mövcud ehtiyatların daha vacib fəaliyyət növlərinə yönləndirilməsi, həmçinin istifadə edilməyən və ya səmərəsiz istifadə edilən ehtiyatları azad etmək üçün mövcud fəaliyyət proseslərinin optimallaşdırılması yolu ilə əldə edilməlidir. Bu, fəaliyyətin nəticələrini qiymətləndirmək və əsas inkişaf istiqamətlərini müəyyən etmək üçün keyfiyyət göstəricilərindən istifadə etməklə, idarəetmə fəaliyyətinin sosial-iqtisadi səmərəliliyinin və büdcə xərclərinin nəticəviliyinin planlaşdırılması və monitorinq sisteminin istifadəsini nəzərdə tutur. Bu cür sistem, büdcə vəsaitlərinin xərclənməsi faktını deyil, bu və ya digər fəaliyyət nəticəsinə çatıb-çatmamağı təyin etməklə bu kimi xərclərin səmərəliliyini təyin etməyə imkan verir. Belə bir sistem, dövlət orqanlarının idarəetmə fəaliyyəti sahəsində yaranan dar və problemli sahələri müəyyənləşdirir, eləcə də onların fəaliyyətlərinin korrekt planlaşdırılmasını həyata keçirməyə kömək edir.

**Büdcə xərclərinin məzmununa nəzəri yanaşmalar**

Effektiv büdcə xərcləri sisteminin formalaşma problemlərinin öyrənilməsi adekvat xərc formalarının və onların qiymətləndirilmə meyarlarının axtarılmasını nəzərdə tutur.

Hal-hazırda dövlət maliyyəsi nəzəriyyəsindəki araşdırmaların aktual istiqaməti ictimai sektorun ehtiyatlarının istifadəsi ilə əlaqədardır. Müəlliflər daha ümumi “dövlət xərcləri” kateqoriyasını araşdırırlar. “İctimai xərclər”, “dövlət xərcləri” və “büdcə xərcləri” anlayışları eyni deyil. Dövlət ictimai xərclər sahəsinə dövlət sığortası və dövlət krediti daxildir. Buna baxmayaraq, iqtisadi ədəbiyyatda təsvir edilən və dövlət xərclərinə ünvanlanan yanaşmalar büdcə xərclərinə də tətbiq edilir.

Belə ehtiyat yanaşması çərçivəsində araşdırmalar L.İ.Yakobsonun işlərində təqdim edilir [1]. L.İ.Yakobson, “ictimai xərclər” anlayışını, ictimai nemətə olan ehtiyacları ödəmək və ədalətlilik meyarı baxımından əsaslandırılmış təkrar bölüşdürücü tədbirlərin həyata keçirilməsi üçün ictimai sektorun ehtiyatlarından məqsədyönlü istifadə kimi araşdırır. Öz növbəsində dövlət xərclərinin istiqamətlərini, formasını, strukturunu və miqyaslarını müəyyən edən rasionallıq və səmərəlilik meyarları məqsədli istiqamətlə ayrılmaz şəkildə bağlıdır.

Büdcə xərcləri sisteminin işləməsini qiymətləndirmək üçün bu halda büdcə xərclərinin qiymətləndirilməsi meyarları və göstəriciləri dəstinin daxil olacağı müəyyən instrumentari tələb olunur. Meyar - qiymətləndirmənin, təsnifatın aparıldığı əlamətdir. Göstərici - fəaliyyətin ayrı-ayrı aspektlərinin ədədi xarakteristikasıdır.

L.İ.Yakobson aşağıdakı qiymətləndirmə meyarlarını müəyyən edir: səmərəlilik, qənaətcillik, məhsuldarlıq, nəticəvilik. Eyni zamanda rasionallıq digər araşdırılan meyarları birləşdirir. [1]. Beləliklə, *ehtiyat yanaşması* ehtiyatların istifadə edilməsi və onların meyar və göstəricilər əsasında qiymətləndirilməsi baxımından büdcə xərclərinin şərhi ilə bağlıdır.

Digər təkrar istehsal yanaşması, büdcə xərclərini təkrar istehsal prosesindəki rolu mövqeyindən xarakterizə edir. Təkrar istehsal yanaşması çərçivəsində, M.V. Romanovskiy tərəfindən transformasiya əlaməti üzrə tərtib edilən dövlət xərclərinin təsnifatını nəzərdən keçirməyi təklif edirik [5]. Bu meyara uyğun olaraq dövlət xərcləri transformasiya və transfer xərclərinə bölünür.

Əgər dövlət xərcləri mal və ya əməklə ifadə olunan xidmətlərlə qarşı-qarşıya qalırsa, o zaman dövlət pul vəsaitləri axınının digər nemətlərə özünəməxsus çevrilməsi baş verir, bununla əlaqədar olaraq bu cür xərclər transformasiya xərclərinə aid edilir. Dövlət istehlakı və dövlət investisiyaları onların arasında xüsusi yer tutur. Dövlətin xərcləri müxtəlif növ pensiya və müavinətlərin ödənilməsinə yönəlirsə, qarşılıqlı xidmətlərin təqdim edilməsini nəzərdə tutmayan, vergi ödəyicilərindən bu ödənişləri alanlara dövlət vasitəçiliyi ilə vəsaitlərin ötürülməsi – *transfer* – baş verir. Bu cür xərclər transfer xərcləri adlanır [2]. Transformasiya xərcləri iqtisadi strukturları stimullaşdırır, iqtisadiyyat sahələrində ehtiyatların paylanma nisbətlərini dəyişir, ictimai və bazar nemətlərinin istehsal həcmlərinə təsir göstərir.

Transfer xərcləri əhalinin təbəqələri arasında gəlirlərin paylanması nisbətlərini dəyişdirir, ayrı-ayrı vətəndaş kateqoriyalarının gəlir səviyyəsini artırır. Beləliklə, transformasiya xərcləri iqtisadi-bölüşdürücü, stimullaşdırıcı, tənzimləyici, təkrar istehsal funksiyalarını yerinə yetirir. Transfer xərcləri əsasən sosial bölüşdürücü və təkrar istehsal funksiyaları həyata keçirir.

Daha bir yanaşma funksional yanaşmadır, ona əsasən xərclər dövlət hakimiyyəti orqanlarının funksiyalarına görə təsnif edilir. Yakobson L.İ.: «*Vəsaitlərin xərclənmə formalarının rasional seçimi qənaəti təmin etməyə və onlardan istifadənin nəticəviliyini artırmağa imkan verir. Məhz dövlət xərclərinin tərkibi, strukturu və həcmi, maliyyə sisteminin fəaliyyətinin nəticəsini şərtləndirir, yəni sualın cavabını əvvəlcədən müəyyənləşdirir – o, ictimai təkrar istehsaldakı rolunu yerinə yetirirmi ya yox*» [1].

Azərbaycan Respublikasının Büdcə Məcəlləsi ilə tənzimlənən büdcə xərclərinin formaları, ölkə inkişafının daxili problemlərinin həlli və dünya birliyi ilə qarşılıqlı əlaqələrlə şərtlənən dövlətin bütün funksiyalarının siyahısını göstərməyə, istiqamətlərin prioritetini sistematik şəkildə əks etdirməyə və dövlət tənzimləmə prosesinin təsirini qiymətləndirməyə imkan verir.

Fikrimizcə, *büdcədənkənar transfer* formaları xüsusi maraq doğurur.

Transferlər yuxarı büdcədən planlaşdırıldığı və bölüşdürüldüyü üçün seçilmiş transfer formasının təsirini proqnozlaşdırmaq və ərazinin inkişaf xüsusiyyətlərini nəzərə almaq olduqca çətindir. Bütün büdcə xərcləri sisteminin fəaliyyətinin nəticəsi, konkret şərtlərdə transfer formasının seçilməsindən asılıdır. Onların təqdim edilmə şərtlərini və qiymətləndirmə meyarlarını müəyyən edək.

“Büdcə xərclərinin nəticəviliyi və səmərəliliyi” monoqrafiyasında müəlliflər büdcədənkənar transferlərin təqdim edilməsinin nəticəviliyini ayırd edirlər [3]. Müəlliflərin ayırdığı meyarları (indikatorları) təhlil edərək, qeyd etmək lazımdır ki, onların nöqteyi-nəzərinə əsasən, qiymətləndirmə əsasən büdcə xərclərinin qənaətcilliyi, bəzi hallarda təqdim edilən dövlət və bələdiyyə xidmətlərinin sayının çoxaldılması ilə nəticələnir.

Müəlliflər büdcə təminatının səviyyəsini tənzimləmək üçün dotasiyaları, *“göstərilən xidmətlərin sayının artırılması”* və *“büdcə xidmətlərinin son minimal səviyyəsini (standartını) qoruyarkən maya dəyərinin azaldılması”* göstəricilərindən istifadə edərək qiymətləndirməyi təklif edirlər [3]. Seçilən göstəricilər ehtiyat yanaşması çərçivəsində təsvir etdiyimiz büdcə ehtiyatlarından istifadənin qənaətcillik meyarlarına uyğundur. Lakin bu, vəsaitlərdən istifadənin yalnız bir tərəfidir. Dotasiyalar üçün, məsələn, bütün səviyyələrdə dövlət orqanlarının cəhd etdikləri həm qənaətcilliyi, həm də məhsuldarlığı, həm nəticəviliyi ümumiləşdirən büdcə vəsaitlərindən daha rasional istifadə etmək üçün dövlət orqanlarının stimullaşdırılması meyarını əlavə etmək lazımdır.

Müəlliflər subsidiyaların verilməsini nəticəvilik indikatorlarına aid edirlər: daha böyük həcmdə və ya daha yüksək keyfiyyətdə büdcə xidmətləri göstərməsi üçün dövlət hakimiyyəti orqanlarının stimullaşdırılması; büdcə xidmətlərinin təqdim edilməsinin daha qənaətli üsulunun seçilməsi [3, 8]. Subsidiyalar büdcə xərclərinin birgə maliyyələşdirilmə proqramları çərçivəsində ayrılırsa, özünün maliyyə, vergi potensialını artırmaq üçün dövlət hakimiyyəti orqanlarının stimullaşdırılması nəticəviliyin mühüm indikatoru olacaq ki, bu da gələcəkdə regional hakimiyyət orqanlarının və bələdiyyə idarəçiliyinin həyata keçirilən proqramlarda iştirak sayını çoxaltmağa, ərazilərin əhalisinin üstünlüklərinə müvafiq olaraq ehtiyatlardan istifadənin adekvatlığını yüksəltməyə imkan verəcək. Seçilmiş stimullaşdırma indikatoru büdcə vəsaitlərindən istifadənin rasionallıq meyarının yerinə yetirilməsinə səbəb olacaq.

Müəlliflərin fikrincə, subsidiyaların verilməsi məsələlərindən biri də büdcə sisteminin səviyyələri arasında qanunla müəyyən edilmiş xərc səlahiyyətlərinin ayrılmasının korreksiyasıdır [3]. Bu, dövlət hakimiyyəti orqanlarının əhaliyə dövlət və bələdiyyə xidmətlərində öhdəliklərinin yerinə yetirilməsinin təkmilləşdirilməsi ilə bağlı olduqca aktual məsələdir.

Lakin, məsələnin bu cür qoyuluşunda subvensiyaların nəticəviliyinin ayrılmış indikatorları kifayət deyil: həvalə edilmiş büdcə xidmətinin göstərilməsinin maya dəyərinin azaldılması; həvalə edilmiş büdcə xidmətində istehlakçıların məmnunluq səviyyəsinin yüksəldilməsi; həvalə edilmiş səlahiyyətlərin idarə edilməsi üçün xərclərin azaldılması [3]. Səlahiyyətlərin idarə edilməsi üçün xərclərin azaldılması indikatoru olduqca mübahisəlidir, çünki yuxarı hakimiyyət orqanlarının xərc öhdəliklərinin maliyyələşdirilməsində iştirakı aşağı strukturların vəzifə və funksiyalarının yerinə yetirilməsinə görə məsuliyyəti azaltmır.

Bundan başqa, subvensiyalar ayrılarkən ümumi makroiqtisadi siyasətin həyata keçirilməsi üçün bölgünün məqsədli xarakterini əldə etmək, regional hakimiyyət orqanlarının və bələdiyyə qurumlarının işindəki çatışmazlıqları aradan qaldırmaq vacibdir.

Ümumiyyətlə, büdcələrarası transferləri qiymətləndirərkən, əvvəl sadalanan digər vəsaitləri də əhatə edən büdcə vəsaitlərindən istifadənin rasionallığı və səmərəliliyinin iki vacib meyarına riayət etmək lazımdır.

Bir çox müəlliflər nəticəvilik meyarını xüsusi olaraq qeyd edirlər. Məsələn, Yakobson L.İ. deyir: “Ümumiyyətlə, büdcə xərclərinin nəticəviliyini yüksəltmək və qənaətcilliyini təmin etmək xeyli asan olur, əgər xərclər ən əvvəldən konkret məqsəd və məsələlər kəsiyində daha tez qurulursa, nəinki onların idarələri, bölmələri kəsiyində və s.” [1]. Bizim nəzərimizdən, nəticəvilik meyarını ümumiləşdirmək, xərcləri yalnız nəticənin yerinə yetirilməsi baxımından təhlil etmək lazım deyil. Nəticəvilik, büdcə vəsaitlərinin tam qiymətləndirilməsi üçün lazım olan meyarlardan biri olaraq, nəticənin qoyulmuş hədəflərə uyğunluğunu xarakterizə edir [4]. Ehtiyatların qənaətcilliyini də həmçinin xərclərin rasionallığını tam miqyasda qiymətləndirməyə imkan vermir, çünki xərclərin artması məhsulun (xidmətlərin) sayının çoxalması ilə bağlı ola bilər, yəni qiymətləndirmənin mühüm kəmiyyət meyarlarının biri kimi xərclərin məhsuldarlığını nəzərə almaq çox vacibdir.

Müxtəlif müəlliflərin büdcə xərclərinin qiymətləndirilməsinə həsr edilmiş tədqiqatlarının çoxluğuna baxmayaraq, qiymətləndirmə meyarları barəsində bir çoxlarının fikirləri üst-üstə düşür: qənaətcillik, nəticəvilik, səmərəlilik. Bu zaman nəticəvilik və səmərəlilik meyarları arasında aydın fərq yoxdur.

“Səmərəlilik” meyarı qoyulmuş büdcə vəsaitlərindən səmərənin əldə edilməsini göstərir. Alınmış səmərə qismində dövlət və ya bələdiyyə xidmətlərinin həcminin və/və ya keyfiyyətinin artmasını görmək olar.

Beləliklə, xərclərin səmərəlilik meyarı digər “qənaətcillik”, “nəticəvilik” meyarlarını birləşdirən nisbi göstəricidir.

Meyarların məcmusunun yerinə yetirilməsini gözdən keçirmək lazımdır: nəticəvilik, qənaətcillik, adekvatlıq, məqsədəuyğunluq, nəzarət edə bilmək. “Rasionallıq” və “səmərəlilik” meyarları büdcə xərclərinin qiymətləndirilməsi üçün ümumiləşdirici ola bilər.

Proses yanaşması baxımından büdcə xərclərinin mərkəzləşdirilmiş fondlarda toplanan vəsaitləri səmərəlilik və rasionallıq meyarlarına uyğun olaraq bölüşdürmək yolu ilə dövlət strukturlarının iqtisadiyyata müdaxiləsinin həcmi göstərilir.

Xarici ədəbiyyatda dövlət strukturlarının fəaliyyətinə, onların təsərrüfat subyektlərinə təsirinə bazar prizmasından baxılır.

Bu yanaşmanın təmsilçisi C.Stiqlits dövləti iqtisadi hərəkətlərinin spesifik subyekti kimi, “*individlərin ümumi məqsədləri güdən koordinasiya edilmiş hərəkətlərinin qiymətləndirildiyi xüsusi institut sistemi qismində*” görür [6]. Dövlət gəlirləri bazasında formalaşan ictimai sektorun potensialı xərclər vasitəsilə reallaşdırılır.

Bu yanaşma, bazar reaksiyasını proqnozlaşdıraraq, büdcə xərclərinin köməyi ilə aparılan dövlət tədbirlərinin iqtisadi subyektlərə təsirini nəzərə almağın zəruriliyini sübut edir.

Beləliklə, büdcə xərcləri iqtisadi təbiətinə görə dövlət hakimiyyəti və idarəetmə, bələdiyyə idarəçiliyi orqanlarının, iqtisadiyyat subyektləri ilə yaranan, əhalinin dövlət (bələdiyyə) xidmətlərinə olan ehtiyaclarının təmin edilməsinə yönəldilmiş iqtisadi münasibətlərini ifadə edir. Digər tərəfdən, büdcə xərcləri – hakimiyyət və idarəetmə orqanlarının sərəncamında olan, bazar iştirakçılarının davranışına təsir edən və iqtisadi proseslərin gedişatını dəyişdirə bilən spesifik iqtisadi alətdir.

Baxılmış yanaşmaları nəzərə alaraq, büdcə xərclərinin tədqiqinə struktur-funksional yanaşmanı təcrübədə yaymağı təklif edirik.

Büdcə xərclərinin adekvat qiymətləndirilməsi üçün büdcə xərcləri sisteminin tərkibini və elementlərinin qarşılıqlı təsirini nəzərə almaq lazımdır. Struktur-funksional yanaşma, büdcə xərcləri sistemini metodlar, göstəricilər, büdcə ehtiyatlarının ayrılması və istifadəsi prosesində iştirakçılar arasında qarşılıqlı əlaqə prinsiplərinin daha mürəkkəb məcmusu kimi təqdim etməyə imkan verir. Bununla əlaqədar olaraq, alan vətəndaşların dövlət və xüsusi nemətlərə olan ehtiyaclarının müəyyən edilməsindən başlayaraq, onların maliyyələşdirilmənin nəticələrinin qiymətləndirilməsi ilə bitən büdcə xərcləri sisteminin işləməsi qiymətləndirilməlidir. Eyni zamanda, maliyyələşdirmə yalnız büdcə vəsaitlərinin bölüşdürülməsini nəzərdə tutmur, həm də xərc öhdəliklərinin ayrılması səmərəliliyi və onların maliyyə təminatı ilə sıx bağlıdır.

Fikrimizcə, “səmərəli büdcə xərcləri sistemi” meyarlar məcmusuna uyğun olmalıdır, ümumiləşdirici meyarlar ola bilər: bir tərəfdən, büdcə vəsaitlərindən istifadənin rasionallığı, digər tərəfdən - edilmiş xərclərin səmərəliliyi.

Büdcə xərcləri sisteminin fəaliyyətinin nəticələrinin qiymətləndirilməli olduğu fərqli əlamətlərin (meyarların) daha ətraflı təsviri, büdcə qanunvericiliyinə əsaslanan büdcə xərcləri sisteminin elementlərinin qarşılıqlı əlaqəsinin anlaşılmasını nəzərə alaraq həyata keçirməyi təklif edirik: büdcə vəsaitlərinin rasional istifadəsi ilə ifadə olunan dövlət hakimiyyəti orqanlarının səmərəli qarşılıqlı əlaqəsi; büdcə vəsaitlərinin əhali seçicilərinin üstünlüklərinə uyğun şəkildə bölüşdürülməsinin adekvatlığı (uyğunluğu); çəkilən xərclərin planlaşdırılan məqsədlərə, vəzifələrə, büdcə xərclərinin infikatorlarına uyğunluğu; büdcə xərclərinə qənaət etmək üçün və eyni zamanda əhalinin həyat səviyyəsinin qorunması şərtilə stimulların yaradılması; ictimai nəzarətin həyata keçirilməsi üçün xərc öhdəliklərinin yerinə yetirilməsinə dair məlumatların obyektivliyi və əlçatanlığı.

## *Nəticə*

Tədqiqatımızdan göründüyü kimi, büdcə xərcləri sisteminin əsas elementlərinə daxildir: ictimai ehtiyacları təmin etmək məqsədi ilə maliyyə ehtiyatlarının adekvat formalaşdırılması və istifadəsi üçün zəruri olan dövlət hakimiyyəti orqanları, bələdiyyə qurumları və əhalinin qarşılıqlı əlaqə prosesində vətəndaşların maraq və üstünlüklərinin müəyyən edilməsi; dövlətin funksiyalarını yerinə yetirmək və vətəndaşların dövlət və bələdiyyə xidmətlərinə olan ehtiyaclarını ödəmək üçün büdcə vəsaitlərinin yetərli səviyyəsini müəyyən edən xərc öhdəliklərinin müəyyən edilməsi; regionların və bütövlükdə ölkənin sosial-iqtisadi və elmi-texniki inkişafı problemlərinin həlli məqsədilə büdcə xərclərinin proqnozlaşdırılması və planlaşdırılması; dövlət hakimiyyəti və idarəetmə orqanlarının funksiyalarına uyğun olan, şaquli və üfüqi disbalansları minimuma endirən xərc öhdəliklərinin

adekvat maliyyə təminatı, büdcə vəsaitlərinin bölüşdürülməsi və onların əvvəlcədən təsdiq edilmiş meyarlara və göstəricilərə əsasən qiymətləndirilməsi. Beləliklə, büdcə xərcləri sistemi, iştirakçıların qarşılıqlı əlaqələrinə, strukturundakı dəyişikliklər kontekstində regional iqtisadiyyata stimullaşdırıcı təsir göstərə biləcək maliyyə-iqtisadi alətlərə əsaslanan bir-biri ilə əlaqəli, bir-birindən asılı elementlərin məcmusunu bildirir.

Büdcə xərcləri sisteminin funksiyaları, fikrimizcə, xərclərin sosial-iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi ilə xarakterizə olunmalıdır. Büdcə xərcləri sisteminin aşağıdakı əsas funksiyalarını nəzərdən keçirmək məqsədəuyğundur:

1) iqtisadi-bölüşdürücü - büdcə xərcləri, iqtisadi inkişafda sahə, ərazi disproporsiyaları aradan qaldırmaq üçün vəsaitlərin sənayelər, müəssisələr, bölgələr arasında paylanmasına vasitəçilik edir;

2) sosial-bölüşdürücü - sosial münaqişə və ziddiyyətləri aradan qaldırmaq məqsədilə gəlirlərin, iqtisadiyyat ehtiyatlarının iqtisadi cəhətdən güclü subyektlərdən iqtisadi cəhətdən zəif olanlara bölüşdürülməsini şərtləndirir;

3) təkrar istehsal - cəmiyyətin vəsaitlərinin bölüşdürülməsi vasitəsi ilə büdcə xərcləri, xərclənmiş maddi, əmək, maliyyə ehtiyatlarının təkrar istehsalı üçün fondların yaradılmasına kömək edir;

4) tənzimləyici - iqtisadiyyatdakı ehtiyatların proporsiyalarının təkrar bölüşdürülməsi və dəyişdirilməsi köməyi ilə bazar strukturlarının qarşılıqlı əlaqələrinin mənfi nəticələrinin düzəldilməsi həyata keçirilir;

5) stimullaşdırıcı - büdcə vəsaitlərinin bölüşdürülməsi və təkrar bölüşdürülməsinin müəyyən mexanizmlərinin təkmilləşdirilməsi əsasında iqtisadiyyatın, infrastrukturun və sosial sahənin inkişafı üçün stimulların, xüsusi şəraitin yaradılması.

Bu funksiyaların hər biri dövlətin iqtisadiyyatda iştirakının istiqamətlərini göstərir və büdcə xərcləri sistemi çərçivəsində hökumət strukturları və biznesin qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi üçün zəmin yaradır və optimal tətbiq edildikdə bu xərclərin səmərəliliyinin artmasına kömək edir.

## ƏDƏBİYYAT

1. Якобсон Л.И. Государственный сектор экономики: экономическая теория и политика: учебник для вузов. М.: ГУ ВШЭ, 2000. -367 с.
2. Финансы: Учебник для вузов / Под ред. М.В.Романовского, О.В.Врублевской, Б.М.Сабанти. – М.: ЮрайтМ, 2002. – 292с
3. Результативность и эффективность бюджетных расходов. Монография / под ред. Руковой А.В. и др. М.: Книжная редакция "Финансы", 2009.-720 с.
4. Либерман Т.И. Оценка результативности бюджетных расходов в экономике региона //Российское предпринимательство. 2012. №13 (211). 142 с.
5. Финансы: учебник для бакалавров / под. ред. М. В. Романовского, О.В.Врублевской. — 4-е изд. перераб. и доп. - М.: Издательство Юрайт; ИД Юрайт, 2015.- 598 с.
6. Стиглиц Дж.Ю. Экономика государственного сектора /Пер. с англ.М.: Издво МГУ: ИНФРАМ. 1997. 720 с.
7. Шумских Т.И. Влияние механизма бюджетного федерализма на ре шение региональных проблем. Диссертация на соискание ученой степени кандидата экономических наук. Липецк, 2003.
8. Ataşov, B.X. Maliyyə bazarları: dərslik / B.X.Ataşov; elmi red. N.A.Novruzov.- Bakı: "Kooperasiya" nəşriyyatı, 2016.- 456 s.

*Мурад Теймур оглы Мамедзаде*
*Азербайджанский Университет Кооперации*
*докторант*

## Суть бюджетных расходов и обеспечение ее эффективности

*Резюме*

***Цель исследования*** - исследование основных теоретико-методологических подходов к определению сущности бюджетных расходов и повышения их эффективности.

***Методология исследования*** - системный подход, сравнительный анализ.

***Практическая ценность исследования*** - возможность использования его в качестве научного источника в исследованиях, посвященных проблемам регулирования бюджетных расходов.

***Результаты исследования*** – даны предложения по повышению эффективности регулирования бюджетных расходов.

***Оригинальность и научная новизна исследования*** - выявление и научное обоснование эффективных направлений бюджетной деятельности, связанных с регулированием бюджетных расходов в Азербайджанской Республике.

***Ключевые слова: бюджетные расходы, государственные расходы, государственные расходы, эффективность, внебюджетные трансферты, система расходов.***

***Murad Teymur Mammadzadeh***
***Azerbaijan Cooperation University doctoral student***

## Essence of budget expenditures and ensuring its efficiency

***Summary***

**Research objective** is to study the main theoretical and methodological approaches to detected the nature and improving efficiency of budget expenditures.

**Research methodology** - systematic approach, comparative analysis.

**Practical value of research -** the ability to use it as a scientific source in research on budget expenditures.

**Findings** - suggestions on the rationalization of budget expenditures.

**Originality and scientific novelty of the research** - identification and scientific substantiation of modern directions related to the essence of budget expenditures and its rationalization in the Republic of Azerbaijan.

***Key words: budget expenditures, government expenditures, public expenditures, efficiency, extra-budgetary transfers, expenditure system.***